# ARALIQ HESABATI
# 7 yanvar – 24 yanvar 2020

**29 yanvar 2020**

## I. ALİ İCMAL

- 5 dekabr 2019-cu il tarixində parlamentin buraxılması barədə müraciətindən sonra və Konstitusiya Məhkəməsinin razılığı ilə Prezident parlamenti buraxmış və 9 fevral 2020-ci il tarixində növbədənkənar parlament seçkilərini təyin etmişdi. Parlament üzvləri, 125 birmandatlı dairələrdən sadə səs çoxluğu ilə beş illik müddətə seçilir. Seçki dairələrinin yarısından çoxunda qeydə alınmış seçicilərin sayı orta hesabla qanunun icazə verdiyi həddən çoxdur.

- Parlament seçkiləri ilk növbədə Konstitusiya və Seçki Məcəlləsi ilə tənzimlənir. Konstitusiya əsas hüquq və azadlıqları təmin edir, lakin qanuni çərçivə bu azadlıqlara bir sıra məhdudiyyətlər qoyur. DTİHB və Avropa Şurasının Venesiya Komissiyası tərəfindən sərbəst toplaşma və ifadə azadlığı, media mühiti və namizədlərin qeydiyyatı ilə bağlı çoxsaylı tövsiyələri hələ də nəzərə alınmamışdırlar.

- Seçkiləri Mərkəzi Seçki Komissiyası (MSK), 125 dairə seçki komissiyaları (DSK) və 5,500-ə qədər məntəqə seçki komissiyaları (MnSK) idarə edir. Bu günə qədər MSK, akkreditə olunmuş müşahidəçilər və media üçün açıq olan müntəzəm iclaslar keçirmişdir. Qərarlar, ümumilikdə yekdilliklə qəbul edilir və MSK-nın saytında yerləşdirilir. Seçki komissiyaları peşəkar və müvafiq resurslarla təmin olunmuş təsəvvürü yaradır. MSK, məcburi köçkünlərin (köçkünlərin) səs hüquqlarından istifadə etmələrini təmin etmək üçün tədbirlər görür.

- Təxminən 5,2 milyon qeydiyyatdan keçmiş seçici var, onlardan da 340,689 nəfəri məcburi köçkündür. Seçici siyahıları 5-15 yanvar tarixləri arasında ictimaiyyət üçün açıq idi ki, seçicilər öz məlumatlarını onlayn yoxlaya və düzəliş tələb edə bilsinlər. Seçki günü qeydiyyat, yaşayış yerini təsdiq edən sənədlə mümkündür. MSK bazasında qeydə alınmış seçicilərin sayı ilə Dövlət Statistika Komitəsinin məlumatlarında səsvermə yaşı olan vətəndaşların sayı arasında təxminən 2 milyon nəfərə qədər fərq var.

- DSK-lar 1637 namizədi qeydə almış və bunların 83 faizi özü tərəfindən namizədliyi irəli sürülən şəxslərdir. 19 siyasi partiyan toplam 272 namizəd irəli sürmüşdü. Son parlamentin cəmi 80 üzvü (64 faiz) yenidən seçilmək istəyir. Qeydiyyata alınmış namizədlərin 21 faizini qadınlar təşkil edir. Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına baxmayaraq, üzərilərində olan məhkumluğun götürülməməsi və cinayət qeydlərinin aradan qaldırılması səbəbindən dörd şəxsin namizəd kimi qeydiyyatına imtina edilmişdi. 24 yanvar tarixinə qeydə alınmış namizədlərdən 239-ü öz namizədliyini geri götürmüşdür.

- Rəsmi 22 günlük seçki kampaniyası müddəti yanvarın 17-də başlamış və bu günə qədər solğun keçməkdədir. Namizədlər, MSK tərəfindən əvvəlcədən seçilmiş 136 qapalı və 136 açıq yerlərdə təşviqat tədbirləri təşkil edə bilərlər. Tədbirin MSK tərəfindən təyin olunmamış məkanda keçirilməsi "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunla tənzimlənir və beş günlük bildiriş müddəti tələb edir.

- Kampaniyanın maliyyələşdirilməsi haqqında qanunvericilik kampaniyanın birbaşa dövlət maliyyələşdirilməsini nəzərdə tutmur, ianələr və xərclərə məhdudiyyətlər qoyur və namizədlərdən təşviqat üçün sərf etdiyi maliyyə barədə hesabat təqdim etməyi tələb edir. Partiyalar və namizədlər öz vəsaitlərindən istifadə edə, ianələr isə fiziki və hüquqi şəxslər tərəfindən edilə bilər. Anonim və nağd ianələrin edilməsi qadağandır. MSK və DSK-lar kampaniyanın maliyyələşdirilməsi qaydalarının icrasına nəzarət etməli olsalar belə, onlardan yoxlamaları fəal şəkildə aparmaq tələb olunmur.

- Konstitusiya, ifadə azadlığına, məlumat əldə etmək hüququna zəmanət verməsinə və senzuranı qadağan etməsinə baxmayaraq, bu hüquqlar müxtəlif qanunlarla ciddi şəkildə məhdudlaşdırılır.Televiziyanın hələ də ölkə daxilində ən əlçatan mətbuat vasitəsi olmasına baxmayraq,, onun əsasən əyləncə, sosial media platformalarının isə alternativ siyasi məlumat mənbəyi kimi istifadə olunur.

- Şikayət və müraciətlər seçicilər, namizədlər, siyasi partiyalar və bloklar, onların nümayəndələri, habelə müşahidəçilər və seçki komissiyaları tərəfindən verilə bilər. Seçki komissiyalarının qərarlarından yuxarı instansiya komissiyasına, onların qərarından apellyasiya məhkəmələrinə, və son instansiya kimi Ali Məhkəməyə şikayət verilə bilər. 2017-ci ildə qanunvericiliyə edilən dəyişikliklər bütün hallarda, o cümlədən seçki ilə əlaqəli işlərdə nümayəndəlik institutunu ləğv etmiş və bütün məhkəmə işlərində fiziki şəxsləri yalnız Vəkillər Kollegiyasının üzvü olan hüquqşünasların təmsil edə biləcəyinə dair qərar vermişdi. MSK və apellyasiya məhkəmələrinə namizədlərin qeydiyyatı ilə bağlı 34 şikayət daxil olmuşdu ki, bunlar əsasən mübahisəli imza və natamam dəstək sənədlərinə aid idi.

- Seçki Məcəlləsi, ATƏT-in öhdəliklərinə uyğun olaraq vətəndaş və beynəlxalq seçki müşahidəçiliyini təmin edir. DTİHB SMM-ın görüşdüyü bəzi həmsöhbətlər xarici maliyyələşdirmə ilə bağlı qanun müddəalarının vətəndaş cəmiyyətləri təşkilatlarının müşahidəçilərin cəlb etməsini məhdudlaşdırdığını qeyd etmişdirlər. 24 yanvar tarixinə MSK və DSK-lar 17,733 fərdi və 1,724 qeyri-hökumət təşkilatları tərəfindən namizədliyini irəli sürmüş müşahidəçini qeydə almışdır. Ümumiyyətlə, 32,106 namizədin və 19 siyasi partiyanın nümayəndəsi akkreditə olunmuşdur.

## II. GİRİŞ

Azərbaycan Respublikası Hökumətinin dəvətini aldıqdan sonra ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) 7 yanvar tarixində Seçki Müşahidə Missiyası (SMM) təsis edib. Səfir Peter Tejler-in rəhbərlik etdiyi SMM, Bakıda yerləşən 12 nəfərlik əsas heyətdən və 14 yanvarda bütün ölkə üzrə 12 əraziyə göndərilmiş 26 uzunmüddətli müşahidəçidən (UMM) ibarətdir. Missiyanın üzvləri ATƏT-in 23 iştirakçı dövlətindən seçilib. DTİHB, səsvermə, səslərin hesablanması və nəticələrin qeydiyyatı da daxil olmaqla, seçki günü proseslərini müşahidə etmək üçün iştirakçı dövlətlərdən 350 nəfər qısamüddətli müşahidəçinin ezam edilməsini xahiş etmişdir.

## III. ÜMUMİ MƏLUMAT VƏ SİYASİ KONTEKST

5 dekabr 2019-cu il tarixində parlamentin buraxılması barədə müraciətindən sonra və Konstitusiya Məhkəməsinin razılığı ilə Prezident parlamenti buraxmış və 9 fevral 2020-ci il tarixində növbədənkənar parlament seçkilərini təyin etmişdir[1]. Prezidentə göndərilən müraciətində parlament, növbədənkənar parlament seçkilərinin keçirilməsinin səbəbi kimi prezidentin müəyyən etdiyi iqtisadi,

---

[1] Növbəti Parlament seçkiləri 1 noyabr 2020-ci il tarixində keçirilməli idi.

məhkəmə və sosial islahatlar tempi ilə qanunvericilik prosesinin uyğunlaşdırılması zərurətini göstərimişdi. Qarşıdan gələn növbədənkənar parlament seçkiləri buraxılmış parlamentdə 65 yer çoxluğuna sahib olan Yeni Azərbaycan Partiyasının (YAP) hakim olduğu bir siyasi mühit çərçivəsində baş tutur. Formal olaraq parlament müxalifətini təşkil edən, lakin YAP-ı dəstəkləyən partiyalar parlamentdə 12 yer tutur, 38 yer isə adətən hakim partiya ilə eyni şəkildə səs verən müstəqil namizəd kimi seçilmiş üzvlər payına düşürdü[2]. Son parlamentdə təmsil olunan 12 partiyanın hər biri hazırki seçkilərə qatılmışdı.

DTİHB SMM-in bir sıra həmsöhbətləri bu seçkilərin yeni insanların siyasi arenaya çıxması üçün şans olacağını qeyd etdiyi halda, digərləri sözügedən seçkilərin yalnız hakim elitalar arasında mandatların yenidən bölüşdürülməsinə səbəb olacağını bildirmişdirlər. Son bir neçə il ərzində və son dövrlərdə Prezident Administrasiyasında və Nazirlər Kabinetində uzun illər ərzində çalışan bir neçə rəhbər şəxslər dəyişdirilmiş və ya fərqli bir vəzifəyə keçirilmişdirlər.

Hökümət, DTİHB SMM-ə seçkilərin azad və ədalətli şəraitdə keçirilməsi üçün siyasi iradənin olduğunu bildirmişdir. DTİHB-lə ünsiyyətdə olan bir sıra həmsöhbət Azərbaycanda fundamental hüquq və azadlıqlara hörmətlə bağlı ciddi narahatlıqlarını ifadə etmişdirlər.[3] Bəzi müxalifət partiyaları, xüsusən mediaya çıxışı və təşviqat zamanı sərbəst toplaşmaq azadlığını məhdudlaşdıran mühit səbəbindən seçkiləri boykot etmək qərarına gəldiklərini bildirmişdirlər. Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) onların üzərindən məhkumluğun götürülməsinə dair qərar çıxarmasına baxmayaraq, bir neçə gözlənilən namizədin seçkilərdə iştirak hüququndan məhrum olmuşdurlar.[4]

Son parlamentdə 20 yer (16 faiz), 15 dövlət komitəsinin yalnız 2-sinin sədri qadın olmasını və nazir vəzifəsində heç bir qadının olmamasını nəzərə alaraq, qadınlar ictimai həyatda kifayət qədər təmsil olunmamışlar. Qeydiyyata alınan 55 siyasi partiyanın heç birinə qadın rəhbərlik etmir. Qadınların siyasi iştirakına dair narahatlıqlar BMT-nin Qadınlara qarşı ayrıseçkiliyin aradan qaldırılması üzrə Komitəsi (CEDAW) tərəfindən də qaldırılmışdır.[5]

Hökümət, növbədənkənar parlament seçkilərinin Ermənistanla davam edən qarşıdurma şəraitində keçəcəyini qeyd etmişdir. Hökümət, həll edilməmiş münaqişənin ölkəyə bir sıra mənfi təsirlərinin olduğunu vurğulamışdı. Hökümət, xüsusən də böyük sayda məcburi köçkün üçün səsvermənin təşkilini nəzərə alaraq, sözügedən vəziyyətin seçkilərin idarə olunmasını çətinləşdirdiyini qeyd etmişdi.

## IV. SEÇKİ SİSTEMİ VƏ HÜQUQİ ÇƏRÇİVƏ

Parlament üzvləri (millət vəkilləri) 125 nəfərlik birmandatlı dairələrdən sadə səs çoxluğu ilə beş illik müddətə seçilirlər. Seçki Məcəlləsi, hər dairədə qeydiyyata alınmış seçicilərin sayını 5 faizdən çox və müstəsna hallarda bir dairə üzrə orta seçicilərin sayından 10-dan çox olmaması şərtini əks etdirir.

2 Parlament stenoqramlarına baxın. Digər parlament partiyaları: Vətəndaş Həmrəyliyi Partiyası (VHP - iki deputat), Azərbaycan Sosial Demokrat Partiyası, Vətəndaş Birliyi Partiyası, Demokratik Maarifçilik Partiyası, Böyük Quruluş Partiyası, Ana Vətən Partiyası, Milli Dirçəliş Partiyası, Demokratik İslahatlar Partiyası, Sosial Rifah Partiyası, Vahid Azərbaycan Xalq Cəbhəsi Partiyası və Birlik Partiyası - hər birindən bir deputatla. Parlamentin buraxılmasından əvvəl 10 yer boş idi.

3 Beynəlxalq insan hüquqları və vətəndaş cəmiyyəti təşkilatlarının fikrinə əsasən, Azərbaycanda çox sayda siyasi məhbus var. Məsələn, BMT-nin İnsan Haqları Şurasının hesabatına baxın Report of the Special Rapporteur on the situation of human rights defenders on his mission to Azerbaijan (20 fevral 2017). Həmçinin, Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkilinin 2019-cu il hesabatı.

4 Məsələn, Ilgar Mammadov v. Azerbaijan işi, No. 919/15 (AİHM 16 noyabr 2017).

5 BMT-nin Qadınlara qarşı ayrıseçkilik komitəsinin beşinci dövri hesabatına baxın (CEDAW) Concluding Observations on the fifth periodic report of Azerbaijan (12 March 2015), CEDAW/C/AZE/CO/5, bənd 26-27.

Bununla belə, hazırda 75 seçki dairəsində göstərilən məhdudiyyətin aşması halı baş verir.[6] Əvvəlki hesabatlarında DTİHBŞ, səslərin bərabərliyini təmin etmək məqsədi ilə seçki dairələrinin sərhədlərinin yenidən nəzərdən keçirilməsini tövsiyə etmişdir. Seçki Məcəlləsi, dairə sərhədlərinin hər beş ildən bir nəzərdən keçirilməsini tələb edir.[7]

Parlament seçkiləri, ilk növbədə Konstitusiya (son dəyişiklər 2016-cı ildə edilmiş) və Seçki Məcəlləsi (sonuncu dəyişiklər 2019-cu ilin fevralında edilmiş) ilə tənzimlənir.[8] Konstitusiya, əsas hüquq və azadlıqları, o cümlədən sərbəst toplaşmaq, ifadə, birləşmək və məlumat əldə etmək azadlıqlarını, habelə siyasi həyatda iştirak etmək hüquqlarını təmin edir. O, həmçinin, gizli səsvermə yolu ilə universal, bərabər və birbaşa seçki hüququna da zəmanət verir. 2018 və 2019-cu illərdə Seçki Məcəlləsinə edilən dəyişikliklər texniki xarakter daşısa belə, DTİHB və Avropa Şurasının Qanun vasitəsilə Demokratiya üzrə Avropa Komissiyasının (Venesiya Komissiyası) toplaşmaq və ifadə azadlığı, media mühiti və namizədlərin qeydiyyatına aid uzun müddətdir ki verilən bir çox tövsiyələri hələ də nəzərə alınmamışdırlar.

DTİHB SMM-nin görüşdüyü bir neçə həmsöhbət, mövcud hüquqi çərçivə və onun tətbiqi azad seçki təşviqatını təmin etmədiyini, habelə əvvəllər də səsləndirilən ifadə, toplaşmaq və birləşmək azadlığının təməl məhdudiyyətləri ilə bağlı narahatlıqları qeyd etmişdirlər.[9]

Azərbaycan, demokratik seçkilərin keçirilməsi ilə bağlı əsas beynəlxalq və regional sənədlərə, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyasına (AİHK) qoşulan tərəflərdən biridi.[10] AİHK, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarlarının ölkələr tərəfindən icra olunmasını mütləq şəkildə tələb edir. Azərbaycan, AİHM-in qəbul etdiyi 157 qərardan 36-nı icra edib.[11]

## V. SEÇKİNİN İDARƏ EDİLMƏSİ

Seçkiləri, Mərkəzi Seçki Komissiyası (MSK), 125 Dairə Seçki Komissiyaları (DSK) və 5,573 Məntəqə Seçki Komissiyaları (MnSK) idarə edir ki, onlar da, müvafiq olaraq 18, 9 və 6 komissiya üzvündən ibarətdir.[12] MSK, DTİHB SMM-ə məlumat verməişdir ki, Ermənistanla davam edən münaqişənin təsirinə məruz qalan ərazilərdən olan məcburi köçkünlərin (köçkünlərin) səsvermə hüquqlarının həyata keçirilməsini asanlaşdırmaq üçün müvafiq tədbirlər görür. Səsvermə, 125 seçki dairəsindən 10-da baş

---

6 MSK-nın məlumat bazasından (CEC database) alınan məlumatlara əsasən, 125 seçki dairəsindən 30-da 5 faizdən yuxarı, 45-də isə 10 faizdən yuxarı kənarlaşma baş verir.

7 Sərhədlərin yenidən nəzərdən keçirilməsi ilə bağlı MSK-nın internet saytında yerləşdirilmiş ən son 2014-cü ilin oktyabrında qəbul olunan qərar olsa da, MSK, DTİHB SMM-ə sərhədlərin dəqiqləşdirilməsi ilə əlaqədar son dəyişikliklərin 2015-ci ildə baş verdiyini bildirmişdi.

8 Digər müvafiq qanunlara “Sərbəst toplaşmaq azadlığı haqqında”, “Radio və televiziya yayımı haqqında”, “Siyasi partiyalar haqqında”, “Qeyri-hökumət təşkilatları haqqında”, “Dövlət qeydiyyatı haqqında” və “Hüquqi şəxslərin dövlət reyestri haqqında”, “İnformasiya əldə etmək haqqında” qanun, Cinayət, İnzibati Prosessual və Mülki Prosessual Məcəllənin, habelə MSK qaydalarının müvafiq müddəaları daxildir.

9 BMT İnsan Haqları Komitəsinin "Azərbaycan üzrə dördüncü dövri hesabata dair yekun müşahidələr" (16 noyabr 2016), CCPR/C/AZE/CO/ 4, 38, 40 və 42-ci bəndlərə baxın. Həmçinin, Avropa Şurası Parlament Assambleyasının "Azərbaycanda demokratik təsisatların fəaliyyəti" adlı qətnaməsinin (11 oktyabr 2017), 6, 7 və 8-ci bəndlərinin baxın.

10 Həmçinin, 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında 1979-cu il konvensiyası, 1965-ci ildə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında beynəlxalq konvensiya, 2003-cü il korrupsiyaya qarşı konvensiya, Əlillərin hüquqları haqqında 2006-cı il konvensiyası və Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrdə demokratik seçkilər, seçki hüquqları və azadlıqları standartları haqqında 2002-ci il konvensiyası. Azərbaycan həmçinin Avropa Şurasının Venesiya Komissiyasının və Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlətlər Qrupunun (GRECO) üzvüdür.

11 2018 Avropa İnsan Hüquqları Məhkəməsinin statistikasına (statistics) və Azərbaycan ölkə profilinə (profile) baxın. Sərbəst seçki hüququnun pozulması 23 halda baş verib.

12 MSK-da bir yer boş qalır.

tutmayacaq. Hökumətin tam və ya qismən nəzarəti altında olmayan seçki dairələrindəki seçki məntəqələri 1993-cü ildən bəri məcburi köçkünlərin yaşadığı ölkə daxilindəki seçki məntəqələrinə köçürülmüşdü. Hazırki seçkilər üçün 523 seçki məntəqəsi olan 14 DSK məcburi köçkünlərə xidmət göstərəcək.[13] Bundan əlavə, müstəsna hallarda hərbi hissələrdə və həbsxanalarda və istintaq təcridxanalarında 131 seçki məntəqəsi yaradılmışdı.

Bütün seçki komissiyaları beş illik müddətə təyin edilmiş və hazırkı tərkibi 2016-cı ildə təsdiqlənmiş daimi orqanlardır.[14] MSK üzvləri parlament, DSK-lar MSK tərəfindən seçilir, MnSK-lar isə müvafiq DSK-lar tərəfindən təyin olunur. Qanuna əsasən, bütün seçki komissiyalarının tərkibi siyasi qüvvələrin parlamentdəki təmsilçiliyini əks etdirir: parlament çoxluğu, parlament azlığı (parlamentdə təmsil olunan digər siyasi partiyalar kimi müəyyənləşdirilmiş) və müstəqil olan namizədlər üçün üç bərabər kvota ayrılmışdır. DTİHB SMM-nin həmsöhbətləri qeyd etmişdirlər ki, parlamentdə komissiya üzvlərinin namizədliyini irəli sürən üç qrup arasında siyasi fərqin olmaması, həqiqətən qərəzsiz və müstəqil seçki izbibatçılığını təmin etməyə imkan vermir. Qanunvericiliyin tələbinə əsasən bütün komissiyaların sədrləri parlament çoxluğunun namizədləridir.

MSK-nın 17 üzvündən üçü, o cümlədən iki MSK katibindən biri qadındı. MSK-nın məlumatına əsasən, DSK və MnSK üzvlərin müvafiq olaraq 17 və 37 faizi qadınlardı. DSK-ların 2, MnSK-ların 25 faizinə rəhbərlik edən qadınlardır. Komissiya üzvlərinin əksəriyyəti əvvəlki seçkilərdən toplanmış geniş təcrübəyə malikdirlər. 60-dan çox seçki dairəsində namizədliyini qeydə alan partiyalar və partiyalar blokları hər komissiyaya məsləhətçi hüququ olan bir üzv təyin etmək hüququna malikdirlər. Bir dairədə qeydə alınmış namizədin, DSK və həmin dairədəki MnSK-larda eyni nümayəndəsi ola bilər.[15]

Bu günə qədər MSK, DTİHB SMM-nin vaxtında dəvət olunduğu və gündəliyi əvvəlcədən təqdim olunan, habelə akkreditə olunmuş müşahidəçilər və media üçün müntəzəm olaraq açıq iclaslar keçirmişdir. DTİHB SMM-in müşahidə etdiyi iclaslarda əksər komissiya üzvləri müvafiq mövzularda müzakirələr aparmışdırlar. Qərarlar, ümumilikdə yekdilliklə qəbul edilmiş və vaxtında MSK-nın internet saytında yerləşdirilmişdir.

MSK, DTİHB SMM-ə məlumat vermişdir ki, seçki mübahisələrinin həlli ilə bağlı DSK-lar üçün təlimlər təşkil olunmuş və seçki gününə qədər seçki komissiyalarının, polis və icra hakimiyyəti orqanları əməkdaşları üçün də təlimlərin keçirilməsi planlaşdırılır. MSK, seçicilər haqqında məlumat afişaları, habelə ictimai və dövlət yayımlayıcılarında yerləşdirilən video çarxlar hazırlamışdı. Seçki məntəqələrinin əlilliyi olan seçicilər üçün müəssərliyini artırmaq üçün rampalar quraşdırılacaq və görmə qabiliyyəti zəif olan seçicilər üçün Brayl əlifbası təqdim ediləcəkdir. Əvvəlki seçkilərdə olduğu kimi, prosesin şəffaflığını artırmaq məqsədi ilə ölkə üzrə əvvəlcədən seçilmiş seçki məntəqələrində 1000 veb kamera quraşdırılacaqdır.

Seçkilərin növbədənkənar keçirilməsinə və 23 dekabr 2019-cu ildə baş tutan bələdiyyə seçkiləri ilə qismən eyni vaxtda idarə olunmasına baxmayaraq, DTİHB SMM-in bu günə qədər baş çəkdiyi 89 DSK-nın təminatının məqbul səviyyədə olmasını və öz vəzifələrini yerinə yetirməyə hazır olduqlarını müşahidə etmişdir. DSK-ların əksəriyyəti iclaslarını yığılan işlərə əsasən təşkil və qeydiyyatdan keçmiş namizədlər barədə qərarları və ya məlumatları öz lövhələrində dərc edir. Əksər DSK-lar DTİHB SMM

---

[13] Məcburi köçkünlər seçicilərin altı faizini təşkil edir və onların böyük əksəriyyəti yaşadığı yerlərdən namizədlərə səs verəcək.

[14] Bununla belə, 2019-cu ilin sentyabrında, bitərəf deputatları təmsil edən MSK sədrinin müavini Nazirlər Kabineti Aparatı rəhbərinin müavini təyin edildikdən sonra yeni təyin olunmuş sədr müavini MSK-dakı yerini tutmuşdur.

[15] Hazırki seçkilər üçün yalnız YAP-ın bütün səviyyələrdə seçki komissiyalarında məşvərətçi səs hüququ olan üzvləri var. , Partiyalar və namizədliyi özü tərəfindən irəli sürülmüş namizədlər və digər tərəflər DSK və MSK səviyyəsində səsvermə hüququ olan 4,685 üzv təyin etmişdirlər.

müşahidəçilərinə qarşı açıq və əməkdaşlıq yönümlü olmasına baxmayaraq, iki DSK DTİHB müşahidəçilərinin iclaslarına girişlərinə etiraz edərək, şəffaflığın olmamasını nümayiş etdirdilər.

## VI. SEÇİCİLƏRİN QEYDİYYATI

Qanuna əsasən, seçki günü, 18 və ya daha yuxarı yaşı olan, məhkəmə qərarı ilə hüquqlarından məhrum olunmayan vətəndaşlar səs verə bilərlər.[16] Səsvermə hüququ, şəxsiyyət vəsiqəsi və ya pasportu olan ölkədə qeydiyyata alınmış yaşayış yeri olan şəxslərə verilir. Seçki günü xaricdə olan seçicilərin parlament seçkilərində səs vermək hüququ yoxdur.

Seçicilərin qeydiyyatı passiv prosesdir. Bu, seçicilərin vahid ümumxalq reyestrini aparan Mərkəzi Seçki Komissiyasına verilən yerli yaşayış məlumatlarının çıxarışlarına əsaslanır. MnSK-lar, hər il mayın 30-dək DSK-lar vasitəsilə MSK-ya yenilənmiş siyahıların təqdim olunmasını təmin edir. Seçki gününə ən azı 25 gün qalmış siyahılar yenidən yenilənir. Seçici siyahılarının ilkin sürətləri 5-15 yanvar tarixləri arasında ictimaiyyətə təqdim edilmişdi. Bundan əlavə, seçicilər, MSK-nın qaynar xəttindən istifadə edərək öz məlumatlarını onlayn yoxlaya, digər seçicilərin məlumatlarını soruşa və müvafiq MnSK-larda dəyişiklik tələb edə bilər. İki yeniləmə arasında seçicilərin sayı 25,098 nəfər artmışdı.

15 yanvar tarixinə qeydə alınmış seçicilərin sayı 5,238,000 nəfər idi ki, onlardan da 340,689 nəfəri məcburi köçkündür. Bu tarixdən sonra və seçki gününə qədər və seçki dairəsində qeydiyyata alınmış seçicilər sənədlərini təqdim edən seçiçilər MnSK tərəfindən əlavə seçici siyahısına daxil edilə bilərlər. Bundan əlavə, seçicilər, yaşadıqları DSK-ların ərazisində yerləşən fərqli bir məntəqədə səs vermək imkanı verən qeydiyyatdançıxma vəsiqəsinin (QÇV) alınması üçün müraciət edə bilərlər.[17]

Mərkəzi Seçki Komissiyasında qeydə alınmış seçicilərin sayı ilə Dövlət Statistika Komitəsinin səsvermə yaşına çatmış vətəndaşların sayı barədə məlumatları arasında uzun illər ərzində müşahidə olunan fərqlər var və Dövlət Statistika Kömitəsinin rəqəmləri təxminən 2 milyon daha çox seçicinin olduğunu göstərir.[18] DTİHB SMM ilə ünsiyyətdə olan bir çox həmsöhbət, bu fərqi izah etmək üçün ictimai məlumatların olmaması seçici qeydlərinin dəqiqliyinə inamsızlıq yaratdığını bildirir.

## VII. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ VƏ QEYDİYYATI

Parlamentə üzv olmaq hüququ, ikili vətəndaşlıq və ya digər dövlətlər qarşısında öhdəlikləri olmayan və ağır cinayətə görə əvvəlcədən məhkum edilməyən və seçici olmaq hüququna malik şəxslərə verilir. AİHM-nin qərarlarına baxmayaraq, əvvəllər məhkum edilmiş və üzərilərindən məhkumluq götürülməmiş dörd siyasi və vətəndaş cəmiyyəti fəalının namizədliyindən imtina edilmişdir.[19]

---

16 BMT-nin Əlillərin Hüquqları Komitəsi (ƏHK) Azərbaycana "məhdudiyyətləri aradan qaldırmağı və hüquq qabiliyyətindən məhrum edilmiş şəxslərə səsvermə hüququnu dərhal bərpa etməyi" tövsiyə etmişdir. Bax: CRPD "Azərbaycanla bağlı yekun müşahidələr" (12 may 2014), CRPD/C/AZE/CO/1, maddə 45. Əqli və psixososial əlilliyi olan şəxslərin səsvermə hüquqlarına qoyulan məhdudiyyətlərin aradan qaldırılması barədə DTİHB SMM-nin əvvəlki tövsiyəsinə cavab olaraq, hökümət, tövsiyənin növbəti parlamentin çağırışında nəzərdən keçiriləcəyini bildirmişdir.

17 Bu məqsədlə ümumilikdə 150.000 qeydiyyatdançıxma vərəqəsi çap edilmişdir. Seçicilər, bu vəsiqələri fevralın 6-dək müvafiq MnSK-lardan ala bilərlər.

18 Dövlət Statistika Komitəsinin DTİHB SMM-ə verdiyi məlumata əsasən, 2019-cu ilin dekabr ayına olan səsvermə yaşlı vətəndaşların sayı 7,325,000 olaraq müəyyən edilmişdir. Komitənin məlumatında qeyd olunur ki, bu saya xaricdə yaşayan Azərbaycan vətəndaşları, Azərbaycanda yaşayan xarici vətəndaşlar, habelə 1989-cu il Sovet İttifaqı siyahıyaalmasına əsasən Dağlıq Qarabağ əhalisi daxildir.

19 Avropa Şurası Nazirlər Komitəsi, müntəzəm olaraq, "İlqar Məmmədov qrupu" kimi tanınan Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qarşısında səkkiz ərizəçinin məhkumluğunu ləğv etməyə və cinayət törətməsi haqqında qeydləri silməyə çağırmışdı; bununla belə, 6 yanvar 2020-ci il tarixinədək qüvvədə olan məlumata əsasən hökumət, AİHM qərarını icra etməməsini davam etdirmişdir.

Namizədlər, öz namizədliyini özü verə və ya qeydə alınmış siyasi partiya, partiyalar koalisiyası və ya bir qrup seçici tərəfindən irəli sürülə bilər.[20] Namizəd olmaq üçün hər bir namizəd öz bildirişlərini və namizədlik sənədlərini DSK-ya təqdim etməlidir. Bundan əlavə, irəli sürülmüş namizədlər, ən azı 450 seçicinin imzası olan imza vərəqələrini, gəlir və əmlakları haqqında bəyannamələr və seçki kampaniyalarına dair ilk maliyyə hesabatlarını müvafiq DSK-lara təqdim etməlidirlər.[21] Namizədlərin irəli sürülməsi və qeydiyyata alınması ilə əlaqədar bu seçkilər üçün MSK üç təlimat, habelə qanuni tələblərə əlavə qaydalar qəbul etmişdi.[22] Namizədlərin qeydiyyata alınmasının iki mərhələli prosesi DSK-lar tərəfindən Mərkəzi Seçki Komissiyasının iştirakı ilə həyata keçirilmişdir.[23]

Namizədliyini 10 yanvar tarixinədək DSK-ya təqdim etmiş namizədlərin qeydiyyatı 17 yanvar tarixində başa çatmışdı. Namizədlik statusu müraciət edənlərin böyük əksəriyyətinə verilmişdi.[24] Ümumiyyətlə 1,637 nəfər qeydiyyata alınıb, onlardan da 83 faizi (1,357) öz namizədliyini irəli sürmüş şəxslərdir. On doqquz siyasi partiya tərəfindən 272 şəxsin namizədliyi irəli sürülmüşdür ki, bunların arasında ən çox yeri YAP (122), ardınca *Müsavat* (25) və *Ümid* (21) partiyaları almışdır. 80 sabiq millət vəkili və ya son parlament üzvlərinin 64 faizi yenidən seçilmək istəyir.[25]

DTİHB SMM-nin baş çəkdiyi 89 DSK-ya əsasən, namizədlərin qeydə alınmaması əsasən aşağıdakı səbəblərlə bağlı idi: sənədlərin, xüsusən əmlak və gəlir bəyannamələrinin natamamlığı və müddətlərə əməl olunmaması. 24 yanvar tarixindən etibarən MSK, qeydiyyatı ilə bağlı DSK qərarlarından verilmiş 35 namizədin şikayətini qəbul etmiş və barələrində qərar vermişdi (*Bax Şikayət və Müraciətlər*).

Namizədliyi irəli sürülən şəxslərin və onların nümayəndələrinin DSK-larda namizədliklərinin qeydiyyatı müzakirə olunduğu və qərar verildiyi iclaslara dəvət olunması müsbət haldır. Bununla birlikdə, DTİHB SMM-nin ziyarət etdiyi DSK-ların məlumatına əsasən, imzaların mübahisəli olduğu hallarda DSK-ların kiçik bir qismi ekspert rəyi üçün müraciət etmişdi. Mülkiyyət və ya gəlir bəyannamələrinin təqdim edilmədiyi hallarda namizədlərə çatışmayan sənədləri təqdim etmək imkanı verilməmişdi.

Qeydə alınmış namizədlərin təxmini 22 faizi qadınlardır. Qadınların namizədliklərini irəli sürmək üçün heç bir qanuni tələb yoxdur. 24 yanvar tarixinə 239 namizəd qeydə alındıqdan sonra namizədliyini geri götürmüşdü. Geri götürmələrin əksəriyyəti dövlət sektorunda çalışan və namizədliyi özü tərəfindən irəli sürülən namizədlərdir. Qanunla namizədlər seçki gününə 10 gün qalmış namizədliyi geri götürə bilərlər.

---

20 Namizəd, öz namizədliyini yalnız bir dairədən irəli sürə bilər və həmin dairədə səs vermək üçün qeydiyyatdan keçmək öhdəliyi daşımır.

21 Seçici, namizədin yaşadığı dairədə birdən çox namizədin lehinə imza ata bilər.

22 2019-cu ilin mart və dekabr ayları arasında MSK, öz namizədliyini irəli sürmüş və bir qrup seçici tərəfindən irəli sürülmüş namizədlərin namizədliyin irəli sürülməsi qaydalarını izah edən təlimatlar qəbul etmişdir. MSK, imza siyahılarının namizədlərə təhvil verilməsi qaydalarını da qəbul etmiş, habelə təqdim olunan məlumatların düzgünlüyünün yoxlanılması qaydasına aydınlıq gətirmişdir. 2015-ci il parlament seçkilərində tətbiq olunan bir sıra müvafiq təlimatlar qüvvədə qalmaqdadır.

23 DSK-a, sənədləri yoxlamaq və namizədliyi təsdiqləmək üçün beş gün, bəyannamələrin düzgünlüyünü, imzaları yoxlamaq və namizədin qeydə alınması barədə qərar vermək üçün yeddi gün ayrılır. MSK-nın işçi qrupu imzaların yoxlanılmasında yalnız namizədin DSK-nın qeydiyyata alınmaması barədə qərarından şikayətinə cavab olaraq iştirak edir.

24 MSK-nın internet səhifəsində 17 yanvar tarixinə yerləşdirilmiş məlumatlara əsasən, DSK-ya bildiriş və partiya sənədlərini təqdim etmiş 2,331 ərizəçinin 2,358-i qəbul olunmuşdur; imza vərəqələrini alan 2,247 nəfərdən 1,744-i digər qeydiyyat sənədləri ilə birlikdə imza vərəqələrini DSK-lara təqdim etmişdirlər.

25 Bu seçkilərdə YAP namizədlərinin üçdə birindən çoxu (122-nin 45-i) son parlamentdə üzv olan millət vəkilləridir.

## VIII. TƏŞVİQAT MÜHİTİ

Rəsmi təşviqat müddəti yanvarın 17-də başlamış və səsvermə başlamazdan 24 saat əvvələdək davam edəcəkdir. MSK, təşviqat məqsədi ilə ölkə daxilində 136 qapalı və 136 açıq yer təyin edib. Siyasi partiyalar və namizədlər, müvafiq DSK-ya yer və vaxt yerini göstərərək müraciət göndərməlidirlər. Qanunda sorğunun görüşdən neçə gün əvvəl verilməsinə və DSK cavabı üçün son tarixə dair məlumat yoxdur. Tədbirin MSK tərəfindən təyin olunmamış məkanda keçirilməsi "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunla tənzimlənir. Nəticə etibarılə, tədbirdən ən azı beş gün əvvəl yerli hakimiyyət orqanlarına bildiriş göndərilməlidir.[26] Qanunvericilikdə dinc toplaşmaq barədə əvvəlcədən xəbərdarlıq qeyd olunsa belə, təcrübədə icazə tələb olunur.[27] Hərbi hissələrin, təşkilatların və qurumların ərazisində və mədəniyyət obyektləri kimi qeydiyyata alınan binalarda təşviqat fəaliyyəti qadağandır.

DTİHB SMM-nin görüşdüyü bir çox həmsöhbət, sərbəst toplaşmaq azadlığına hakimiyyət tərəfindən hörmət edilmədiyini bildirərək, icazə verilən son siyasi mitinqin 2019-cu ilin yanvar ayında Bakıda keçirildiyini qeyd etmişdirlər. Həmsöhbətlər, oktyabr ayında müxalifətin Bakıda keçirmək istədiyi icazəsiz mitiniqin hakimiyyət tərəfindən fiziki güc tətbiq edərək dağıdıldığını, bir çox fəal və müxalifət liderinin həbs edildiyini deyirlər. Konstitusiyada zəmanət verilsə belə, sərbəst toplaşmaq, birləşmək və hərəkət azadlıqlarının qanuni çərçivə və onun tətbiqi ilə ciddi şəkildə məhdudlaşdırıldığını, tənqidi fikirlərini ifadə edənlərin hökümət tərəfindən sistematik təzyiq və cinayət təqibinə məruz qoyduğunu da bildirirlər.[28] Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, 2005-ci ildən bəri ona xarici pasport verilməməsi səbəbindən xaricə səfər edə bilmir.

Bu günə qədər kampaniya solğun keçir. Təbliğat materialları, broşuralar və plakatların yayılması başlamış və bir neçə namizəd, DTİHB SMM-ə qapı-qapı gəzib, seçicilərlə görüşmək planları barədə məlumat vermişdilər. Təbliğat, əsasən sosial mediada aparılmaqdadır və bir sıra namizəd kampaniyanın rəsmi başladığı tarixdən əvvəl onlayn təbliğata başlamışdırlar. DTİHB SMM bu günə qədər məhdud sayda təşviqat tədbirini müşahidə etmişdir ki, onlarda da əsasən sosial siyasət və rifahla əlaqəli yerli məsələlər müzakirə olunmuşdu.[29] Bəzi müxalifət partiyaları 22 gün davam edən təşviqat müddətinin platformanı elektorata düzgün çatdırmaq üçün çox qısa olduğunu qeyd etmişdirlər.

## IX. SEÇKİ KAMPANİYASININ MALİYYƏLƏŞDİRİLMƏSİ

Kampaniyanın maliyyələşdirilməsi üçün dövlət vəsaiti ayrılmır. Namizədlər, təşviqat kampaniyalarını öz mənbələri və fiziki və hüquqi şəxslərin ianələri hesabına maliyyələşdirə bilərlər. Namizədlər, seçki kampaniyası ilə bağlı bütün əməliyyatlar üçün MSK tərəfindən müəyyən edilmiş bir bankda xüsusi hesab açmalıdırlar. 60-dan çox qeydə alınmış namizədi olan siyasi partiyalar vahid təşviqat fondu yarada bilərlər. Hər bir namizəd kampaniyaya ən çoxu 500,000 manat (təqribən 265,000 Avro) vəsait xərcləyə və həmin vəsaitə fiziki şəxslərdən ən çoxu 3000 manat, hüquqi şəxslərdən isə 50,000 manat ianə daxil ola bilər.[30] Siyasi partiyalar irəli sürdükləri namizədlərin maliyyələşdirilməsi üçün 150,000

---

26 Tədbirdən beş gündən az müddətdə təqdim olunan bildirişlərdə gecikmənin səbəbi izah olunmalıdır.

27 İnsan Hüquqları Komitəsinə yekun müşahidələrinə (2016) CCPR/C/AZE/CO/4) baxın. *Müsavat* və DQMŞ, 2019-cu il ərzində 12 bildiriş təqdim etdiklərini, bunların hamısının rədd edildiyini bildirmişdirlər. Bir dəfə Hökümət Bakının kənarında alternativ bir məkan təmin etdi.

28 Bundan əlavə, BMT İnsan Hüquqları Komitəsinin "Azərbaycanın dördüncü dövri hesabatına dair yekun müşahidələrinin" (16 noyabr 2016), CCPR/C/AZE/CO/4, 38, 40 və 42-ci bəndlərinə baxın.

29 Bu günə qədər DTİHB SMM, YAP tərəfindən beş, müstəqil namizədlər tərəfindən beş və Böyük Quruluş Partiyası tərəfindən təşkil edilən bir tədbirin müşahidəsinə aparmışdır.

30 1 Avro təxminən 1,89 manata *(Azərbaycan manatı)* bərabərdir.

manata qədər vəsait istifadə edə bilərlər.[31] Xarici, dövlət, xeyriyyəçi və anonim ianələr, habelə naturada təqdim edilmiş ianələr qadağandır.

Seçki Məcəlləsi, təşviqat kampaniyasının maliyyəsinə dair namizədlərin DSK-ya üç dəfə hesabat verməlerini tələb edir.[32] Hesabat daxil olduqdan sonra beş gün ərzində komissiyanın müvafiq lövhəsində yerləşdirilməlidir. Hesabatda əks olunmuş rəqəmlər müəyyən həddən yüksək olduğu təqdirdə, yerli kütləvi informasiya vasitələrində də dərc olunmalıdır. Bank, hesablarda həftə ərzində aparılan əməliyyatlara dair müvafiq DSK-ya həftəlik hesabat təqdim etməlidir. Seçki gününə on gün qaldığı müddətdə, bank, DSK-ya ən azı üç gündən bir məlumat təqdim etməli və DSK-lar iki həftədən bir namizədlərin aldıqları və xərclədikləri vəsaitlər barədə kütləvi informasiya vasitələrinə məlumat verməlidirlər.

MSK və DSK-lar hər bir komissiyada yaradılmış nəzarət və audit xidmətləri vasitəsilə təşviqat maliyyəsinə nəzarət edir. Bununla yanaşı, qanun onlardan fəal şəkildə audit aparmasını tələb etmir. Kampaniyanın maliyyələşdirilməsi qaydalarının pozulması, o cümlədən hesabatların verilməməsi və yayımlanmaması maliyyə cərimələri ilə nəticələnə bilər.[33] Xərclər icazə verilən miqdardan artıq olduqda, namizədlər cərimə edilə və onların qeydiyyatı ləğv oluna bilər.[34]

## X. KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

Konstitusiya ifadə azadlığına, məlumat əldə etmək hüququna və senzuraya qadağa qoymasına baxmayraq, bu cür hüquqlar müxtəlif qanunlarla ciddi şəkildə məhdudlaşdırılır. "Kütləvi informasiya vasitələri haqqında" qanunda hərbi vəziyyət fövqəladə vəziyyət və dini ekstremizmə qarşı aparılan əməliyyatlarda KİV azadlığına məhdudiyyətlər qoyulur. Sosial şəbəkələrdə də daxil olmaqla böhtan və ictimai təhqir cinayət xarakteri daşıyır və üç ilədək, prezidentə qarşı yönəldildiyi təqdirdə isə beş ildək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bundan əlavə, ATƏT-in media azadlığı üzrə nümayəndəsi (MAüN), jurnalistlərə qarşı ağır cinayətlərlə ittihamlardan, habelə onların təqib qorxusu olmadan, sərbəst və təhlükəsiz şəkildə məlumat verə bilmək imkanlarından narahatlıqlarını müntəzəm olaraq ifadə edir.[35] Avropa Şurasının yanaşmasına əsasən beş jurnalist həbsdə qalmaqdadır.[36]

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi məhkəmə qərarı olmadan veb saytları bağlamaq və məzmununa görə media orqanlarını qadağan etmək hüququna malikdir. Nazirlik və məhkəmələrin veb saytların bloklanması ilə bağlı qərarlarının heç də hamısı ictimaiyyətə açıq deyil və bloklanmış veb saytların vahid siyahısı yoxdur.[37]

Ölkə üzrə on iki televiziya (TV) kanalı yayımlanır. Dövlət televiziyası olan *AzTV* və ictimai kanal (*İTV)* dövlət büdcəsindən maliyyələşdirildiyi halda, DTİHB SMM-lə həmsöhbət olan şəxslər bəzi özəl

---

31 2019-cu ildə siyasi partiyaların maliyyələşdirilməsi üçün dövlət büdcəsindən təxminən 3 milyon manat ayrılmışdır. Bu məbləğin 10 faizi parlamentdə təmsil olunmayan, lakin son parlament seçkilərində ən azı üç faiz səs toplamış partiyalara mütənasib olaraq paylanmalıdır. Vəsaitin 40 faizi parlamentdə təmsil olunan partiyalar arasında bərabər nisbətdə və qalan 50 faizi seçilmiş millət vəkillərinin sayına görə bölünməlidir.

32 Qeydiyyat zamanı ilkin, seçki gününə 10 ilə 20 gün qalmış müddətdə aralıq və seçki nəticələrinin dərc edildiyi gündən 10 gündən gec olmayaraq yekun hesabat.

33 Maliyyə hesabatlarının təqdim edilməməsi və yayımlanmaması üçün cərimələr 1,000 ilə 2,000 manat arasında dəyişir. Fərdi donorlar üçün cərimələr 100 ilə 500 manat arasında dəyişir; vəzifəli şəxslər üçün 1,500 manatdan 2,000 manata, hüquqi şəxslər üçün 5,000 ilə 7,000 manata qədər cərimələrə nəzərdə tutulub.

34 Namizədin müəyyən edilmiş həddən beş faizdən artıq vəsait xərcləməsi əsasında namizədliyinin ləğv olunması üçün məhkəmənin qərarı tələb olunur.

35 ATƏT-in media azadlığı üzrə nümayəndəsinin 22 oktyabr 2019, 22 fevral 2019, 22 yanvar 2019, 22 dekabr 2018 tarixlərində verdiyi bəyanatlara baxın.

36 Avropa Şurasının jurnalistikanın qorunması və jurnalistlərin təhlükəsizliyini təşviq etmək üçün platformasına baxın.

37 ATƏT-in media azadlığı üzrə nümayəndəsinin (MAüN) 10 avqust 2018-ci il tarixli bəyanatına baxın.

kanalların həddindən artıq çox borcu olduğunu iddia edirlər. Bundan əlavə, reklam bazarının məhdud olması bir çox KİV-in dövlət maliyyəsindən asılılığınasəbəb olur. 30-a yaxın özəl mətbuat orqanları, Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi informasiya vasitələrinin inkişafına Dövlət dDəstəyi Fondundan aylıq maliyyələşmə alır.[38] Buna baxmayaraq, çap mətbuatın tirajı aşağı olaraq qalmaqdadır.[39] Bəzi DTİHB SMM həmsöhbətlərinin verdiyi məlumata əsasən, dövlətə bağlı mətbuat vasitələri digər KİV-lərə nisbətən rəsmi mənbələr tərəfindən verilən məlumatlara daha asan çıxışa malikdirlər.[40]

Televiziyanın hələ də ölkə daxilində ən əlçatan mətbuat vasitəsi olmasına baxmayraq, DTİHB SMM-nin bir çox həmsöhbətləri, kanalların əsasən əyləncə mənbəyi olduğunu, sosial media platformalarından alternativ siyasi məlumat axtarmaq üçün istifadə olunduğunu qeyd edir. Seçki Məcəlləsi rəsmi təşviqat dövründə yalnız 60-dan çox seçki dairəsində qeydə alınmış namizədləri olan partiyalar üçün ictimai yayımda pulsuz efir vaxtının və çap mətbuatında yer ayrılmasını nəzərdə tutur.[41] Namizədlər, ödənişli siyasi reklam üçün vaxt da ala bilərlər; *İTV,* namizədlərə bu imkanı təqdim edən yeganə kanaldır. DTİHB SMM-nin bir çox həmsöhbəti, təşviqat zamanı siyasi reklamın həddindən artıq bahalı olması ilə bağlı narahatlıqlarını paylaşıblar.[42]

Seçki Məcəlləsi, KİV-lərdə təbliğat işlərini çıxışlar, müsahibələr, mətbuat konfransları, açıq müzakirələr, debatlar, dəyirmi masa diskussiyaları, siyasi reklamlar, televiziya və radio proqramları kimi müəyyənləşdirir. DTİHB həmsöhbətləri bildirdilər ki, bu qədər geniş tərif səbəbindən bir çox mətbu orqan qeyri-bərabər işıqlandırma ittihamlarının qarşısını almaq və MSK-nın fəaliyyətinə diqqət yetirmək üçün namizədlərin təşviqatını yaymaqdan çəkinirlər.

Milli Televiziya və Radio Şurası (MTRŞ), yayım mediasına nəzarəti həyata keçirir və yayım lisenziyalarını vermək və geri götürmək səlahiyyətinə malikdir.[43] MSK nəznində fəaliyyət göstərən media qrupuna KİV-də kampaniyanın işıqlandırılmasına nəzarət etmək və təşviqat zamanı media ilə əlaqəli məsələlərin həlli tapşırılmışdır.[44]

Yanvarın 11-də DTİHB SMM, beş milli və dörd regional telekanalın və iki qəzet olmaqla 11 KİV-in seçki ilə bağlı keyfiyyət və kəmiyyət monitorinqinə başlamışdır. DTİHB SMM, həmçinin onlayn mediada keyfiyyət təhlili aparır və seçki ilə bağlı məzmunu sosial media platformalarında izləyir.[45]

---

[38] Həmçinin, ATƏT-in media azadlığı üzrə nümayəndəsinin 20 fevral 2019-cu il tarixli bəyanatına baxın.

[39] Siyasi məzmunlu ən çox oxunan qəzetlərin tirajı gündə 8000 nüsxədən çox deyil.

[40] Jurnalistlər, məlumatın verilməsindən imtina və ya gecikməsinə etiraz etsələr belə, məhkəmədə yalnız vəkillər kollegiyasının üzvü olan vəkil tərəfindən təmsil oluna bilərlər. Alternativ olaraq, onlar özlərini təmsil edə bilərlər.

[41] Bu seçkilər üçün yalnız YAP pulsuz efir vaxtı və ölkə üzrə dərc olunan çap mətbuatında pulsuz yer almağa hüququna malikdir. Yanvarın 17-də olan məlumata əsasən, YAP pulsuz efir vaxtından istifadə etmək fikrində olmadığını bildirmişdir.

[42] Televiziya və radioda yayımlanan vaxtdan asılı olaraq saniyənin qiyməti müvafiq olaraq 22-60 və 7-25 manatdır. Bu, TV və radioda dəqiqədə müvafiq olaraq 3,600 və 1,500 manata bərabərdir (dəqiqədə 1,900 və 795 avro).

[43] MTRŞ, dövlət tərəfindən maliyyələşdirilir və altı üzvünün hər bir prezident tərəfindən təyin edilir.

[44] Mətbuat Qrupu, 4 MSK üzvü və 15 KİV nümayəndəsindən ibarətdir. KİV nümayəndələri MSK tərəfindən təsdiqlənir. Mətbuat Qrupunun rəhbəri qrupun MSK üzvləri tərəfindən seçilir. Öz iclaslarında Mətbuat Qrupu mediada yayımlanması üçün təşviqat qaydaları ilə bağlı ərizə və şikayətlərə baxır. Mətbuat Qrupu tərəfindən pozuntu aşkar edilərsə, MSK inzibati xəta prosedurunu həyata keçirə bilər. 24 yanvar tarixinə olan məlumata əsasən, Mətbuat Qrupu heç bir iclas keçirməmişdir.

[45] Aşağıdakı telekanalların praymtaym vaxtı: *AzTV* (dövlət), *İTV* (ictimai), *ATV, Real* və *Xəzər* (özəl kanallar), regional *ARB Kəpəz, Dünya TV, Naxçıvan TV* və *Qafqaz*; qəzetlər: *İki Sahil* və *Xalq Qazeti*. DTİHB SMM, seçki ilə bağlı məlumatları apa.az, haqqin.az, turan.az internet səhifələrin Azərbaycan dilində variantlarında izləyir.

## XI. MÜRACİƏT VƏ ŞİKAYƏTLƏR

Şikayət və müraciətlər seçicilər, namizədlər, siyasi partiyalar və bloklar, onların nümayəndələri, habelə müşahidəçilər və seçki komissiyaları tərəfindən verilə bilər. Seçki komissiyalarının qərarlarından yuxarı seçki komissiyasına, onların qərarlarında apellyasiya məhkəmələrinə və son instansiya kimi Ali Məhkəməyə şikayət verilə bilər. MSK-nın hərəkəti və ya hərəkətsizliyi ilə bağlı şikayətlər, iddiaçının qeydiyyat ünvanından asılı olaraq, müvafiq apellyasiya məhkəməsinə verilə bilər. Seçki gününə 30 gündən çox qalmış müddətə verilən şikayət və müraciətlər 3 gün, seçki gününə 30 gün qalmış müddətə verilən şikayətlər isə 2 gün ərzində həll edilməlidir. Seçki günü və seçkilərin ertəsi günü verilən şikayətlərə dərhal baxılmalıdır. Araşdırma üçün əlavə vaxt tələb olunduğu təqdirdə, bütün yuxarıda göstərilən müddətlər komissiyanın qərarı ilə üç günə qədər uzadıla bilər.

MSK və DSK-ya daxil olan şikayətlər komissiya üzvlərindən və hüquqi təhsilə malik işçilərdən ibarət daxili ekspert qrupları tərəfindən baxılır. İşə təyin olunmuş ekspert araşdırma aparır və iclasda baxılacaq və səs veriləcək qərar layihəsini hazırlayır. MSK, şikayətlərə baxılması üçün təyin edilmiş mütəxəssislər, həmçinin komissiya üzvləri və hakimlərdən ibarət qruplar üçün təlimlər keçirmişdir.

24 yanvar tarixinə MSK-ya 35 şikayət daxil olmuş və onların hamısı barədə qərarlar qəbul edilmişdir.[46] DSK-lara aid üç şikayət keçmiş məhkumluğa əsasən namizədlərin qeydə alınmaması ilə bağlı idi. Qalan 32 şikayət namizədlərin qeydə alınmaması ilə əlaqədar verilmişdir ki, onlardan 18-i rədd, 9-u təmin, 4-ü qismən təmin edilmiş və 1-i geri götürülmüşdür. Qərarların verilmə müddətlərinə riayət olunmuş, lakin Seçki Məcəlləsində göstərilən müddətlərə əsasən, bir neçə müraciət kampaniyanın başlaması müddətinə qədər həll olunmamışdır. DSK-nın imza vərəqələri ilə bağlı qərarlarından verilən on şikayətin səkkizi təmin edilmişdi. Bununla bərabər, MSK, əmlak barədə məlumatın səhv və ya tam açıqlanmaması səbəbindən namizədin qeydiyyatından imtina barədə DSK qərarlarından edilən 15 müraciətdən 12-ni rədd etmişdi.[47] 11 müraciət Bakı Apelyasiya Məhkəməsinə, onlardan daha sonra 5 isə Ali Məhkəməyə təqdim edilmişdir. 16 müraciətdən heç biri mahiyyəti üzrə təmin olunmamışdı. Ümumilikdə və bu günə qədər heç bir həmsöhbət araşdırma prosesi ilə bağlı narahatlıq ifadə etməmişdi. DTİHB SMM, regionlarda fəaliyyət göstərən prokurorluqlara verilən məhdud sayda şikayətlər barədə də məlumata malikdir.[48]

2014-cü ildə tətbiq edilmiş elektron məhkəmə sistemi məhkəmə işlərinin hakimlər arasında təsadüfi qaydada bğlgüsünə imkan verir. 2017-ci ildə qanunvericiliyə edilən dəyişikliklər bütün hallarda, o cümlədən seçki ilə əlaqəli işlərdə nümayəndəlik institutunu ləğv etmiş və bütün məhkəmə işlərində fiziki şəxsləri yalnız Vəkillər Kollegiyasının üzvü olan hüquqşünasların təmsil edə biləcəyinə dair qərar vermişdi.[49] DTİHB SMM-nin bir sıra həmsöhbətləri, Vəkillər Kollegiyasında, xüsusən də bölgələrdə vəkillər çatışmazlığının və son zamanlarda siyasi xarakterli işlərdə iştirak edən vəkillərin Kollegiyadakı üzvlükdən çıxarılmasının məhkəmələrdə seçki hüquqlarının müdafiəsinə xələl gətirə biləcəyini qeyd etmişdirlər.[50]

---

46 Həmçinin, MSK-ya da bir neçə ərizə daxil olmuş ki, ərizəçiyə birbaşa yazılı şəkildə cavab verilmişdir.

47 DSK qərarlarından verilən şikayətlərin digər əsasları bunlardır: qeydiyyat sənədlərinin verilmə müddətini qaçırmış namizədlər, DSK-ların hərəkətsizliyi və ikili vətəndaşlıq.

48 Bu cür hallar, namizədliyin geri götürmək məqsədilə təzyiqlər və vəzifəli şəxslər tərəfindən saxtalaşdırılmış əmlak sənədləri ilə bağlıdır.

49 Mülki Prosessual Məcəlləyə və İnzibati Prosessual Məcəlləyə edilən dəyişikliklərdən əvvəl "Vəkillər və vəkillərin fəaliyyəti haqqında" qanun, vəkilin təmin olunmasını yalnız cinayət tərkibli və Ali Məhkəmədə baxılan işlərdə tələb edirdi.

50 Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkili Dunya Miyatoviçin 8-12 iyul 2019-cu il tarixlərində Azərbaycana etdiyi səfərdən sonrakı hesabatına baxın.

## XII. SEÇKİ MÜŞAHİDƏSİ

Seçki Məcəlləsi, vətəndaşlar tərəfindən aparılan və beynəlxalq seçki müşahidəsi üçün imkan yaradr. Vətəndaşlar, fərdi olaraq və ya seçki sahəsində çalışan qeyri-hökumət təşkilatlarının nümayəndələri və ya namizədlərin və siyasi partiyaların nümayəndələri kimi müşahidə etmək üçün qeydiyyatdan keçə bilərlər. 24 yanvar tarixinə MSK və DSK tərəfindən 17,733 fərdi, qeyri-hökumət təşkilatları tərəfindən təyin olunmuş 1,724 və 400 beynəlxalq müşahidəçi akkreditə olunmuşdur.[51] Ümumiyyətlə, 32,106 namizədin və 19 siyasi partiyanın nümayəndəsi akkreditə olunmuşdur.

Akkreditə olunmuş müşahidəçilər seçki ilə bağlı bütün tədbirlərin, o cümlədən seçki komissiyalarının iclaslarını seçki gününə qədər və seçki günü müşahidə etmək hüququna malik olduqları halda, vətəndaş müşahidəçilər komissiyaların iclaslarını yalnız MSK-dan icazə aldıqları təqdirdə müşahidə edə bilərlər.[52] 24 yanvar tarixinə verilən məlumatda MSK, vətəndaş müşahidəçiləri müraciət təqdim etməmiş və bütün maraqlı subyektlərə seçki komissiyalarının işini müşahidə etməyə imkan verəcəyini bildirmişdir.

Bir neçə vətəndaş cəmiyyəti təşkilatı seçki müşahidəsi aparır və exit-poll keçirir. Bəzi DTİHB SMM həmsöhbətləri, xarici maliyyələşdirmə ilə bağlı qanun müddəalarının vətəndaş cəmiyyətləri təşkilatlarının müşahidəçilərin fəaliyyət göstərməsi, onların təlimləndirilməsi və yerləşdirilməsi imkanlarını məhdudlaşdırdığını bildirmişdirlər. Seçki müşahidəsini aparmaqda böyük təcrübəyə malik Seçki Müşahidəsi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDS), qeydiyyata alınmır və beləliklə hüquqi statusa malik deyil. Onun müşahidəçiləri fərdi qaydada akkreditə olunmağı planlaşdırır. Bəzi vətəndaş cəmiyyəti təşkilatları uzunmüddətli və qısamüddətli müşahidəçilər göndərməklə yanaşı seçki prosesi zamanı pulsuz hüquqi yardım da göstərirlər.

## XIII. DTİHB SMM-İN FƏALİYYƏTİ

DTİHB SMM, Azərbaycanda öz işinə yanvarın 6-da başlamışdır. Missiya Xarici İşlər Nazirliyinin, MSK-nın, namizədlər və siyasi partiyaların, KİV-lərin, vətəndaş cəmiyyətinin, beynəlxalq təşkilatların və ölkədə akkreditə olunmuş bir sıra diplomatik nümayəndəliklərin nümayəndələri ilə görüşmüşdür. ATƏT Parlament Assambleyası seçki gününü müşahidə etmək üçün nümayəndə heyəti göndərmək niyyətindədir. ATƏT-in fəaliyyətdə olan sədri Artur Qerasymovu bu seçkilər üçün Xüsusi Əlaqələndirici və ATƏT-in qısamüddətli müşahidəçilər missiyasının rəhbəri təyin etmişdir.

***Bu hesabatın ingilis dilində olan sürəti yeganə rəsmi sənəd hesab olunur.***
***Azərbaycan dilinə tərcüməsi qeyri-rəsmi hesab olunur.***

[51] Qanunvericiliyə əsasən, MSK, bütün beynəlxalq müşahidəçiləri, habelə ölkənin hər hansı bir məntəqəsində müşahidə apara biləcək vətəndaş müşahidəçilərini akkreditə etməlidir. Bundan əlavə, DSK-lar müvafiq seçki dairəsindəki istənilən seçki məntəqəsində müşahidə apara biləcək vətəndaşları akkreditə edir. MSK tərəfindən akkreditasiyanın son tarixi seçki gününə 10 gün, DSK tərəfindən isə 5 gün qalmış müddətdir.

[52] Seçki Məcəlləsiə əsasən, MSK, müşahidəçilərin seçki komissiyasının iclaslarında iştirak etmək hüququnu təmin etmək üçün püşk atma keçirir. Hər bir müşahidəçi kateqoriyasının hər bir komissiyada bu hüquqa malik bir müşahidəçisi ola bilər. Hər bir komissiyaya ən çoxu on nəfərə qədər müşahidəçi təhkim oluna bilər.